# Zaqatala: Müəllim əməyinə qayğı

Müstəqilliyinin üçüncü on illiyini yaşayan respublikamızda təhsilə diqqət və qayğı bir nömrəli vəzifələr sırasına çəkilmişdir. Ölkəmizin hər yeri, o cümlədən Zaqatala rayonu da heç vaxt yaddan çıxmayacaq bu qayğıların gözəl bəhrələrinin sahibləri sırasında addımlayır. Bu günlərdə, Beynəlxalq Müəllimlər Günü ərəfəsində yolum xidməti işimlə əlaqədar sözügedən rayona düşmüşdü. Məqsədim rayonun təhsil həyatı barədə yazı hazırlamaq idi. Müvafiq qurumun rəhbərlərini soraqlayanda müəllim günü ərəfəsində keçirilən növbəti ümumrayon tədbirində olduqlarını bildirdilər və bu soraqla mən də 2018-2019-cu tədris ilinin ali və orta ixtisas məktəblərinə qəbul olunan məzunları və işə qəbulla əlaqədar imtahan verib bal toplayan və Zaqatalaya işləməyə gələn gənc müəllimlərlə görüşün iştirakçısı oldum. Rayon icra hakimiyyətinin rəhbərliyinin, hüquq-mühafizə orqanlarının, Zaqatala ictimaiyyəti nümayəndələrinin, müəllimlərin, məktəb rəhbərlərinin təmsil olunduqları bu tədbir əsl bayram əhval-ruhiyyəsindəydi. Bunun bir səbəbi Beynəlxalq Müəllim Gününün lap astanada olmasıydısa, digər ən mühüm səbəbi son illərdə Zaqatalada təhsilin yüksələn xətlə zirvəyə inamla getməsi ilə öz tarixinə bir-birindən fərəhli, yaddaqalan səhifələr yazmasıydı. Öncə bəzi faktlara nəzər salaq. Son illərdə rayonun müəllimlərindən 9 nəfəri “Əməkdar müəllim” fəxri adına, 10 nəfəri “Tərəqqi” medalına, 16 nəfəri Təhsil Nazirliyinin “Qabaqcıl təhsil işçisi” döş nişanına layiq görülmüşdür. 2019-cu ildə şəhərdəki Ş.Qurbanov adına 3 nömrəli tam orta məktəbin direktoru Elmira Hacıyevanın “Əməkdar müəllim” adına, Z.Murtuzəliyev adına 1 nömrəli tam orta məktəbin müəllimi Kəlmət Abdullayeva “Tərəqqi” medalı, eyni zamanda 4 müəllim Təhsil Nazirliyinin “Qabaqcıl təhsil işçisi” döş nişanına, 3 müəllim isə Fəxri fərmana layiq görülməsi ilə nümunəvi müəllimlərin sayını bir qədər də çoxaltmışlar.



Zaqatalanın ümumtəhsil müəssisələrinin məzunlarının töhfələri də ürəkaçandır. Ali məktəblərə sənəd verənlərin 71 faizi, yəni 416 nəfəri ali təhsil almaq üçün tələbə bileti qazanmışdır. Əvvəlki illərdə orta məktəbi qurtaranlardan da 16 nəfəri bu il ali məktəbə qəbul olmuşdur, 16 nəfər 600, 50 nəfər 500-dən çox bal toplamışdır. Bu il orta məktəbi qurtarıb ali məktəbə qəbul olunan 3 nömrəli tam orta məktəbin məzunu Fazil Səfərov və Humanitar fənlər gimnaziyasının məzunu Cəmilə Qazıyeva Prezident təqaüdünə layiq görülmüşlər.

Rayonda təhsilin maddi-texniki bazasının möhkəmləndirilməsi sahəsinə göstərilən dövlət qayğısı da ilbəil artır. Təkcə bir faktı qeyd edək ki, son 7 ildə Zaqatalada 30 məktəb binası tikilmiş, 6 məktəb binası əsaslı təmir edilərək müasir avadanlıqlarla təmin olunmuşdur. Üç kəndin məktəb binasının yerində 80 şagirdlik yeni modul tipli binalar quraşdırılmış, 10 təhsil ocağının binasında cari təmir işləri aparılmışdır. Zaqatalada təhsilə dövlət qayğısının uğurlu icrasında rayon icra hakimiyyəti mühüm rol oynayır. Yuxarıda adını çəkdiyimiz tədbirdə də bu fikirlər dönə-dönə vurğulandı. Qeyd edildi ki, yüksək bal toplayan məzunlar da, öz işinə yüksək məsuliyyətlə yanaşan, müəllimlər də rayon icra hakimiyyətinin diqqət və qayğısından kənarda qalmırlar. Ötən illərin bu sahədə ən yaddaqalan faktlarından biri 700 bal toplamış zaqatalalı məzuna icra hakimiyyətinin başçısı Mübariz Əhmədzadə tərəfindən minik maşını, onlarca məzuna pul mükafatlarının, qiymətli hədiyyələrin verilməsidir.

Təhsil şöbəsinin müdiri, YAP Zaqatala Rayon təşkilatının sədri **Habil Qurbanovla** həmsöhbət olduq. Onun dediklərindən:

—2018-2019-cu tədris ilində rayonumuzun 66 ümumtəhsil məktəbinin, demək olar, hamısında uğurlu nəticələr əldə olunmuşdur. 16620 nəfər şagirdin təlim-tərbiyəsi ilə məşğul olan 2128 müəllim bu sahədə əllərindən gələni əsirgəməmişdir. Məktəblərimizdə beynəlmiləlçilik ənənələri yenə öz dərin kökləri üstündə davam edir. Başqa sözlə, dərslər məktəblərin 57-də Azərbaycan, 1-də rus, 5-də Azərbaycan-rus dillərində aparılır, 16 məktəbdə azsaylı xalqların dilləri tədris edilir. Ötən tədris ilini şagirdlərimizin 28 faizi əla, 54 faizi isə 4 və 5 qiymətlərlə başa vurmuşlar. Bu sahədə Akademik Zərifə Əliyeva adına Texniki Fənlər Təmayüllü Lisey, Paşan, Aşağı Çardaxlar, Aşağı Tala 1 nömrəli, Sumaylı kənd, Ş.Qurbanov adına şəhər 3 nömrəli tam orta, Cimcimax kənd ümumi orta məktəbləri, Humanitar fənlər gimnaziyası xüsusilə fərqlənmişlər. Rayon məktəblərində şagirdlərdə özlərinə inam yaratmaq qabiliyyətlərini üzə çıxarmaq və inkişaf etdirmək üçün sinifdənxaric tədbirlər, müsabiqələr, elm və idman yarışları, olimpiadalar keçirilmişdir.

Ümummilli lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümü ilə əlaqədar IX-XI sinif şagirdləri arasında keçirilən “Ən yaxşı təqdimat” müsabiqəsində Z.Murtuzəliyev adına şəhər 1 nömrəli tam orta məktəbin X sinif şagirdi Türkan Haqverdiyeva respublika mərhələsində III yerə layiq görülərək diplom və qiymətli hədiyyələrlə mükafatlandırılmışdır.

Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən keçirilən fənn olimpiadalarının respublika mərhələsində Mamrux kənd tam orta məktəbinin X sinif şagirdi Musa Musayev III yerə, fənn müsabiqəsində Zərifə Əliyeva adına liseyin VII sinif şagirdi Gülçin İbrahimova biologiya fənn üzrə III yerə və 3 nəfər şagird həvəsləndirici yerlərə layiq görülmüşdür. “Fövqəladə hallar uşaqların gözü ilə” müsabiqəsinin yumşaq oyuncaq nominasiyasında Əliabad qəsəbə 3 nömrəli tam orta məktəbin VII sinif şagirdi Səmra Abdullayeva III yeri tutmuşdur.

Bu gün dövlət qayğısı ilə əhatə olunan Azərbaycan təhsilinin uğurlarının günbəgün artmasının təməlində ulu öndər Heydər Əliyevin müəyyən etdiyi siyasi kurs və bu kursun indi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən inamla davam etdirilməsi durur. Zaqatala rayonunda da icra hakimiyyətinin rəhbərliyi altında təhsildə çalışanların əzmkarlığı, təşəbbüskarlığı sayəsində dövlətin bu istiqamətdəki proqramları müvəffəqiyyətlə həyata keçirilir. 2019-2020-ci dərs ilinin uğurlu estafeti bunun parlaq təzahürüdür.

**Rasim AMANOV,**
**“Respublika”.**

**Respublika.-2019.- 6 noyabr.-S.5.**